COP29 və dünyanın yenidən kəşf etdiyi möhtəşəm Azərbaycan

Ölkəmizdə yüksək əhvali-ruhiyyə ilə keçirilən COP29 ərzində dünyanın diqqəti məhz Azərbaycana yönəldi. Kimi ölkəmizi yeni kəşf etdi, kimi köhnə xatirələrin izi ilə gəldi, kimi bu vaxta kimi formalaşmış bəzi tərəddüdlü fikirlərin üstündən xətt çəkdi, kimi də sevdi Azərbaycanı. Çünki onlar burada yeni, fərqli bir məmləkətlə qarşılaşdılar.

Odlar Yurdu isti, mehriban, səmimi və olduqca qonaqpərvər mühiti ilə qucaq açdı qonaqlara. Gələnlər özlərini qərib, yad hiss etmədilər. Hamı təmiz, sağlam planet uğrunda çalışdığı bir zamanda, elə ən təmiz, yaşıllıqlar içində, gözəl təbiətə malik Azərbaycanla qarşılaşdı. Bu nə bəlağətli fikirlər, nə də sehrli sözlərdir. Sadalanan bütün təəssüratları tədbir zamanı və yaxud da şəhərin müxtəlif ərazilərində qarşılaşdığımız qonaqların dilindən eşitdik. Hətta bəziləri "Bakı mənim sevdiyim şəhər oldu, həmişə gələcəm" deyərək, arzularını dilə gətirdi. Deməli, əldə olunan nəticələrdən əlavə, həm də Azərbaycan dünyaya açılan yeni, müasir, modern dövlət təəssüratı bağışladı. Küləklər şəhəri - Badi-Kubə bu dəfə payızın sazaqlı günlərində günəşli havalarla qarşıladı qonaqları. Sanki bu işdə təbiət də insanla həmahəng çalışdı. Ekoloji, təmiz, abad şəhərlər sırasında qərarlaşan Bakı üzərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gəldi. Günəş, torpaq, od və Xəzərin vəhdətində Azərbaycan bütün cahana qucaq açdı. Dünyanın bütün aparıcı mətbu orqanları Bakının ev sahibliyi etdiyi mötəbər tədbirdən yazdı.

"Ekologiya" sözü yunan dilində "oikos" ev, yaşayış məskəni deməkdir. Deməli, dünya bizim evimizdir. Onu qorumaq da hər birimizin vətəndaşlıq borcudur. Bu dəfəki COP sadəcə dünya deyil, həm də Azərbaycan cəmiyyəti üçün də yeniliklərlə, nümunələrlə yaddaşlarda qaldı. İnsanlar dünyaya inteqrasiya olmaqda, əlaqələr və ünsiyyətlər qurmaqda daha effektli yolların olduğunu gördülər. Deməli, bəşər insanını birləşdirəcək ən gözəl vasitələrdən biri də planetin qorunması uğrunda birgə əməkdaşlıqdır: dinindən, dilindən, milliyyətindən və kimliyindən asılı olmayaraq. Bakı bu tədbirə ev sahibliyi etməklə bir daha beynəlxalq aləmə sübut etdi ki, dünyanın xilası sevgidədir. Vətənini, torpağını sevməklə yanaşı, həm də bütün Yer kürəsini sevib qorumalısan. Çünki ekoloji quruluş və iqlim şəraiti elədir ki, biri digərinin əksi olsa da, həm də biri o birinin davamı, ardıdır. Yəni bəşəriyyət yalnız Günəşin istisinə isinsəydi, o zaman buzlaqlar əriyər və yer üzü məhvə doğru gedərdi. Yaxud da qar, yağış Günəşə "qalib" gələrsə, nə meşələr, nə yaşıllıq, nə də bitki örtüyü olardı. Təbiətin, iqlimin və ekologiyanın bəşərə bəxş etdiyi nə varsa, hamısı insan üçündür. Deməli, təbiətdə hər şey öz balansını saxlayır. Sadəcə, insanların borcu onu qoruyub, mühafizə etməkdən ibarətdir. Bu baxımdan da COP29 İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçirilməsi həmin məqsədlərin məntiqi davamı kimi qiymətləndirilir. Ötənlərdən fərqli olaraq, builki COP-dan gözləntilər böyük idi. Çünki başlıca hədəf qlobal iqlim dəyişmələri ilə mübarizənin maliyyəti müəyyən edilməliydi. Dövlətlərin karbon emissiyalarının azaldılması üçün nə qədər öhdəlik götürməsi, yaranmış problemin aradan qaldırılmasına ayıracağı vəsaitin həcmi. Sözsüz ki, bu işdə əsas rol oynayacaq ölkələr iqtisadi baxımdan daha çox inkişaf etmiş dövlətlərdir. 2015-ci ildə Fransada keçirilən COP21 Paris iqlim böhranının qarşısını almaq üçün qlobal orta səth temperaturunun artımını 2 dərəcə selsi ilə məhdudlaşdırmaq və mümkünsə 1,5 dərəcədən aşağı saxlamaq məqsədi daşıyırdı.

COP29 indiyə qədərki tədbirlərdən həm də ona görə fərqləndi ki, burada sadəcə dayanıqlı inkişaf və iqlim təhlükəsizliyi ilə bağlı beynəlxalq həmrəylik göstərilmədi, eyni zamanda bütün dünyanın iqlim probleminin həllinə yönəlmiş maliyyənin artırılması ilə bağlı səylərdə artıq praktiki olaraq hərəkətə keçməyin vacibliyi vurğulandı.

Tədbirin ilk günü uğurlu addımla yadda qaldı. "Yaşıl dünya" uğrunda mübarizə aparan Azərbaycan on illərlə həllini tapmayan problemə yaşıl işıq yandırdı. Müzakirələr zamanı planet üçün irəliyə doğru ilk addım məhz Bakıda atıldı. Dünya ölkələri karbon krediti bazarı üçün BMT-nin yeni qaydalarını qəbul etdilər. Bu, ölkələrə iqlimlə bağlı öhdəliklərini yerinə yetirməyə kömək edəcək. Ekspertlər hesab edirlər ki, bu, daha köklü, mübadilə etmək niyyətində olan BMT tərəfindən dəstəklənən standartlarla keyfiyyətli karbon kreditləri mübadiləsi sahəsində yeni karbon bazarına yol açacaq.

Əlbəttə, COP29 beynəlxalq əhəmiyyətli tədbir olduğu üçün dünyanın ona münasibəti və yanaşması da olduqca vacibdir. Azərbaycan bu tədbir vasitəsilə böyük uğurlara imza atdı, ilklərin məkanına çevrildi. Ölkəmizə gələn 80-dən çox dövlət, hökumət rəhbərləri, 75 mindən artıq qonaq qlobal problemlərə həsr edilmiş müzakirələrdə fəal iştirak etdilər. Gündəlikdə müəyyən olunmuş 14 hədəf geniş şəkildə müzakirə ediləərək mühüm nəticələr əldə olundu. COP29-un yüksək səviyyədə təşkili və keçirilməsi Azərbaycanın növbəti uğurlarından biri, dünya siyasi arenasında nüfuzunun göstəricisidir. Burada qəbul edilən qərarlar, müzakirə olunan mövzular planetimizin yaşıl mənzərəsinin qorunmasına böyük təkan olacaq. Ölkəmiz artıq bu sahədə də bir nümunəyə çevrildi. Neft-qaz ölkəsi olmasına baxmayaraq, "yaşıl dünya", "yaşıl enerji" sahəsində atdığı addımlar və bu istiqamətdə gördüyü böyük işlər beynəlxalq aləmin kifayət qədər diqqətindədir. Ölkənin hər yerində, işğaldan azad edilmiş ərazilər də başda olmaqla günəş, külək elektrik stansiyalarının yaradılması bütün bunların bariz nümunəsidir.

Dünyada iqlim dəyişmələrinin təsirləri ilə bağlı mübarizə çağırışlarının artdığı bir dövrdə COP29 kimi qlobal əhəmiyyətli beynəlxalq tədbirə ev sahibliyi edən Azərbaycan sadəcə iqlim dəyişmələri ilə mübarizəyə sadiqliyini göstərmədi, həm qlobal səhnədə artan iqtisadi və siyasi təsirini nümayiş etdirmək üçün unikal fürsət əldə etdi. Bu baxımdan da ölkəmiz üçün COP29-un çox böyük üstünlükləri var.

Bu beynəlxalq tədbir bir daha sübut etdi ki, Azərbaycan bütün dünyəvi məsələlərdə və qlobal problemlərin həllində əsas təşəbbüskarlardan biridir. Eyni zamanda Azərbaycan həqiqətlərinin beynəlxalq auditoriyaya çatdırılması, tarixi, mədəniyyəti haqqında daha geniş biliklər əldə edilməsi üçün əlverişli şərait yaratdı. COP29-un Azərbaycanda keçirilməsi gələcəkdə ölkəmizə siyasi, iqtisadi, investisiya, turizm və regional liderlik baxımından böyük töhfələr qazandıracaq. İqlim dəyişmələri ilə mübarizədə keçirilən tədbir beynəlxalq investisiyaları cəlb etmək və ekoloji layihələrdə əməkdaşlıq imkanlarını genişləndirmək fürsəti yaradacaq. Bu baxımdan, Azərbaycanın bərpaolunan enerji ilə bağlı siyasəti öz bəhrəsini verməkdədir.

Ramidə YAQUBQIZI,
"Respublika".

Respublika .- 2024.- 24 noyabr (№ 259).- S.2.